# QARABAĞ UNİVERSİTETİNİN SABAH TƏLƏBƏLƏRİ

## REPORTAJ

**...2016-cı il idi. Aprel döyüşləri gedir, şanlı ordumuzun gec-tez ədaləti bərpa edəcəyinə inanırdıq. Universitetin həyətində üçrəngli bayrağımızın müşayiəti ilə tələbələrin səsinin birləşdiyi, “Qarabağ bizimdir, bizim olacaq!” şüarının qəlbimizdə, beynimizdə iz saldığı anı unutmaq mümkün deyil. Heç zaman ağlıma gəlməzdi ki, tələbə olarkən səsləndirdiyimiz şüarın davamını bu gün Qarabağda təhsil alan və bundan böyük sevinclə, gözlərində Vətən eşqi parlayan gənclərlə müsahibə ilə tamamlayacağam. Beləliklə, “Azərbaycan müəllimi” Qarabağ Universitetinin SABAH qruplarında təhsil alan bir neçə tələbənin fikirlərini öyrənib:**




### “Qarabağ Universitetində təhsil almaq mənim üçün heyrətamiz təcrübədir”



Emil Əliyev Qarabağ Universitetinin iqtisadiyyat fakültəsində SABAH qruplarında təhsil alır. Xankəndiyə Bakıdan gəlib. Qarabağ Universitetində təhsil almağın onun üçün həm tarixi, həm də mənəvi cəhətdən heyrətamiz təcrübə olduğunu deyir: “Burada təhsil almaq təkcə bilik əldə etmək deyil, eyni zamanda Qarabağın dirçəliş prosesinə töhfə vermək və bu böyük missiyanın bir parçası olmaq deməkdir. “Necə bir hissdir?” deyə soruşsanız, “Böyük məsuliyyət və qürur mənbəyidir” deyərdim.

Xalqımızın başına gətirilmiş müsibətləri, Qarabağın tarixinə yazılan faciələri nəzərə alsaq, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə hazırda Qarabağda dövlətimiz tərəfindən az bir vaxt ərzində həyata keçirilən quruculuq işlərinin vüsəti və nəticələri, ictimai-sosial həyat şəraiti sözlə ifadə edilməz. Bu, sadəcə təhsil prosesi deyil, həm də mənim və tələbə yoldaşlarımın vətən üçün xidmətimizdir. Biz Qarabağın bərpasının simvoluyuq. Bu həmçinin mübarizə və gələcəyə ümidin göstəricisidir. Qarabağın yenidən doğuluşuna şahid olmaq deməkdir. Məkanın tarixi və milli əhəmiyyətini dərk edərək, burada öyrəndiklərimlə yalnız özümə deyil, həm də bu torpaqların gələcəyinə xidmət edirəm. Hər addımda, keçmişin çətinliklərini və xalqımızın mübarizəsini xatırlayaraq daha yaxşı bir gələcək üçün ilham alıram.

Addım atdığı torpağın tarixini bilmək, onun inkişafında iştirak etmək vətəndaş olaraq borcumuzdur”.

### “Nə yaxşı ki, Qarabağ Universitetini seçmişəm”



**Növbəti müsahibimiz Aynur Məmmədova bir az həyəcanlıdır, deyəsən. Amma məmnuniyyətlə bizimlə həmsöhbət olur. O, SABAH qruplarında təhsil alan 60 tələbədən biri olmağın sevincini belə ifadə edir:**

“Burada SABAH qruplarının da tədris olunacağını biləndə heç düşünmədən qərarımı vermişdim. Bakıda, Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alırdım. Çox böyük məsuliyyət tələb edən qərar vermişəm və düşünürəm ki, nə yaxşı ki, Qarabağ Universitetini seçmişəm. Universitetin ilklərindən olmaq məsuliyyətimizi daha da artırır”.

Söhbət əsnasında Aynur Xankəndi şəhərindən, yataqxanadan, tələbələr üçün yaradılan şəraitdən danışmağı da unutmur: “Yataqxanadan qısa məsafədə marketlər, geyim mağazaları, şirniyyat evləri və digər zəruri obyektlərin yerləşməsi rahatlığımızı artırır. Onlar hər bir tələbənin ehtiyacını qarşılayacaq şəkildə qurulub. Yataqxana rəhbərliyi də tələbələrin asudə vaxtlarını maraqlı, faydalı keçirmələri üçün çox çalışır və ən əsası, tələbələrə qarşı mehriban, səmimi yanaşırlar”.

### “Qarabağımızın rifahı üçün çalışmaq istəyi mənə daha çox motivasiya verir”





Şabrandan olan Nərgiz də söhbətə qoşulur, heç sual ünvanlamağımızı gözləmir, təsəvvür etmədiyi arzunun gerçəkliyini yaşamağın xoşbəxtliyini ifadə edir. (Üzündəki təbəssüm dolu həyəcanı aydın hiss olunur, biz də maraqla bu xanımı dinləyirik): “Həqiqətən də Xankəndidə olmaqdan, Qarabağ Universitetində oxumaqdan çox məmnunam və böyük bir qürur hissi keçirirəm. Qarabağımızın yenidən qurulmasında iştirak etmək və bu müqəddəs torpaqlarda təhsil almaq mənə xüsusi bir vəzifə kimi gəlir. Gələcəkdə ölkəmizin, xüsusən də, Qarabağ regionunun rifahı üçün çalışmaq istəyi mənə daha çox motivasiya verir”, - deyən Nərgiz fikirlərini söyləyərək bizdən ayrılır.

**Artıq tələbələrlə sağollaşmaq anına gəlib çatırıq. Bu zaman daha bir tələbəmiz, Əli gözümdən yayınmır. Gəncədən gələn Əli Yusibov da tələbəliyini azad olunmuş Qarabağda, Vətənin dilbər guşəsində keçirməsindən xoşbəxtlik duyduğunu dilə gətirir. O, tələbəsi olduğu universitetin peşəkar mütəxəssislər yetişdirərək doğma yurda öz töhfəsini verəcəyini bildirir və özü də bunun üçün səylə çalışacağını ifadə edir.**

**Təmiz havası, yenicə payıza qucaq açan təbiəti ilə doğma yurd bizi yola salır. Necə qarşılamışdısa...**

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**